**UOT 75**

**Aslan Əkbər oğlu Xəlilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: aslan_ashiq@mail.ru**

# ƏLƏKBƏR RZAQULİYEVİN YARADICILIĞINDA NATÜRMORT JANRI

**Xülasə:** Adı çəkiləndə xüsusilə Köhnə Bakının milli memarlıq abidələrinə, xalqımızın qədim adət-ənənələrinə, çox koloritli tutumu ilə seçilən köhnə Bakı tiplərinə yaradıcılığında geniş yer ayıran Ələkbər Rzaquliyev, eyni zamanda natürmort janrında da bütün mənalarda maraq doğuracaq əsərlər yaratmışdır. Bu mənada onun “Meyvələrlə natürmort” (1962), “Balıqlarla natürmort” (1965), “Natürmort” (1960-cı illər), “Saxsı qablarla natürmort” (1962), “Natürmort. Mis qablar. Lahıc” (1967), “Mis qablar” (1968), “Mis qablar. Lahıc” (1969), “Azərbaycan musiqi alətləri” (1971) və s. əsərlərini qeyd etmək olar. Bu natürmortlarda Ələkbər Rzaquliyevin bizi əhatə edən maddi-mədəniyyət nümunələrinə və təbii sərvətlərə özünəməxsus münasibəti mövcuddur.

**Açar sözlər:** Ələkbər Rzaquliyev, qrafika, yaradıcılıq, natürmort, janr

XX əsr Azərbaycan qrafika sənətinin yüksək inkişafını şərtləndirən, gerçəkliyin bədiiləşdirilməsində özünəməxsus estetik dəyərlər nümayiş etdirən və məşhur “altmışıncılar” nəslinin nümayəndələrindən biri, respublikanın Əməkdar rəssamı, görkəmli qrafika ustası Ələkbər Rzaquliyev (1903-1974) olmuşdur. O, hələ zamanında Xalq rəssamı Əzim Əzimzadənin ənənələrini yaradıcılıqla inkişaf etdirərək, öz realist əsərləri ilə istedadlı qrafik-rəssam kimi geniş şöhrət qazanmışdı.

Ələkbər Rzaquliyev əsrimizin əvvəllərində müşahidə etdiklərini qələmə alanda belə hadisələr bu günün gözü ilə baxırdı. Tamaşaçını düşündürə bilən, narahat edən, maraqlandıran mövzulara toxunurdu. Daha dəqiq desək, köhnə mövzular rəssamın təxəyyülü ilə yenidən müasirləşirdi. Belə ki, onun bir-birindən maraqlı linoqravürlərini izləyən tamaşaçı həmin əsərlərdə maraqlı, yaddaqalan, fərdi xüsusiyyətləri ilə seçilən tiplərlə qarşılaşır, xalqımızın bir-sıra qədim adət-ənənələrinə, onun sadə, adi adamlarına bəslənən böyük bir məhəbbətin şahidi olur. Bu əsərlər sənətkarlıq baxımından aydınlığı, sadəliyi, dərin mənalılığı, dinamikliyi və ilk baxışdaca nəzərə çarpan milliliyi ilə yadda qalır. Başqa sözlə desək, “özünü xalq adət və ənənələrinin, milli mərasimlərin gözəl bilicisi kimi göstərmiş rəssam şəxsi müşahidələri və təəssüratı əsasında

inqilabdan qabaqkı məişətin canlı obrazlar qalereyasını yaratmışdır" [1, s.143]. Belə ki, onun milli bədii qaynaqlara tapınan öz ifadə tərzi, bədii həll formasının ciddiliyi və sadəliyi ilə fərqlənən linoqravürləri təkcə bizim ölkəmizdə deyil, eyni zamanda bir sıra beynəlxalq sərgilərdə müvəffəqiyyətlə sərgilənmiş və təsviri sənətə layiqli töhfələr kimi qəbul olunmuşdu.

Adı çəkiləndə xüsusilə Köhnə Bakının milli memarlıq abidələrinə, xalqımızın qədim adət-ənənələrinə, çox koloritli tutumu ilə seçilən köhnə Bakı tiplərinə yaradıcılığında geniş yer ayıran Ələkbər Rzaquliyev, eyni zamanda natürmort janrında da bütün mənalarda maraq doğuracaq əsərlər yaratmışdır.

Qeyd edək ki, hələ orta əsrlərdən dünya incəsənətində bir janr kimi təzahür edən natürmort janrına ötən dövrlərdə münasibət bəzən ənənəvi, bəzən də fərqli olmuşdur. Azərbaycan təsviri sənətində də onun özünəməxsus təşəkkül tarixçəsi var. Ələkbər Rzaquliyevin çəkdiyi natürmortlar da bu janra onun məhz qrafik münasibətini nümayiş etdirir.

Rəssamın "Meyvələrlə natürmort" (1962), "Balıqlarla natürmort" (1965), "Natürmort" (1960-cı illər), "Saxsı qablarla natürmort" (1962), "Natürmort. Mis qablar. Lahıc" (1967), "Mis qablar" (1968), "Mis qablar. Lahıc" (1969), "Azərbaycan musiqi alətləri" (1971) və s. əsərlərində bizi əhatə edən maddi-mədəniyyət nümunələrinə və təbii sərvətlərə özünəməxsus münasibət mövcuddur.

Üfüqi kompozisiyada həll edilmiş "Meyvələrlə natürmort" (1962) əsərində meyvələri bir araya gətirən rəssam onların özünəməxsus düzümündən yaranan mənzərədəki obrazlı təsviri görməklə, meyvələrin bir sırada ritmli düzülüşünü olduqca inandırıcı və uğurlu əks etdirə bilmişdir.

Eyni mövzunun rəngli linoqravür texnikası ilə icra edilmiş nümunəsində də qrafik cizgilərin məharətlə istifadəsi meyvələrin fakturasının gözəgəlimliyini şərtləndirməklə, həm də müəllifin dəst-xəttinin özünəməxsus bədii məziyyətlərə malik olduğunu nümayiş etdirir.

Ələkbər Rzaquliyevin natürmort yaradıcılığında onun üçün başlıca yaradıcı vəzifə əşyaların cəlbediciliyindən çox, tamaşaçısına onların mahiyyətindən qaynaqlanan dəyərlərdən estetik zövq almaq imkanı vermək idi.

"Ələkbər Rzaquliyevin yaradıcılığından "qırmızı xətt" kimi keçən bədii-estetik keyfiyyətlərdən biri də onun bəzən çoxlarına adi görünə biləcək əşyaları görüntüyə gətirməsidir. Qrafik rəssamın bu cür bədii şərhinin onun axtarışlarla davam edən yaradıcılıq mərhələsinə təsadüf etdiyini nəzərə alsaq və bu təqdimatın özündə də müəllifə xas fərdi bədii məziyyətlərin olduğunu etiraf etməli olsaq, onda gördüklərimizi maddi aləmə özünəməxsus münasibətin ifadəsi saymaq olar" [5, s.106].

"Balıqlarla natürmort" (1965) adlanan hər iki linoqravürdə kompozisiyaya daxil edilən detalların çoxluğu rəssamı obyektə bir qədər fərqli

baxış nöqtəsi seçməyə sövq edib. Miz üzərində bədii görüntüyə gətirilən əşyalara yuxarıdan göz qoyan rəssam bununla bütün atributların görüntüsünün aydınlığını təmin etməklə, təsvirə gətirilənlərlə onları əhatələyən fonu eyni ovqatda kökləməyə nail olmuşdur. Burada da rəssam ağ-qara cizgilərin təzadlı istifadəsi nəticəsində kompozisiyanın həm də dinamikliyini təmin etmişdir.

Əgər Ələkbər Rzaquliyevin çoxlarına adi görünə biləcək əşyalara fərqli münasibətini əyaniləşdirən məqamlara işıq salmaqda davam etsək, onda onun natürmort yaradıcılığında davamlı yer alan atributlardan sayılan məişətdə istifadə olunan saxsı və mis qabları əks etdirən natürmort əsərlərini xüsusilə qeyd etməliyik. Rəssamın 1962-ci ildə ərsəyə gətirdiyi “Saxsı qablarla natürmort” əsərində rəssam gündəlik həyatımızda istifadə etdiyimiz məişət əşyalarını öz düşüncələrinin ifadəçisi seçsə də, onlara fərqli münasibət göstərməklə daşıya biləcəkləri estetik tutumunu zənginləşdirməyə nail olmuşdur.

Ələkbər Rzaquliyevin natürmortlarında onun kompozisiyaya daxil etdiyi müxtəlif əşyalara elə bir yaradıcı – nüfuzedici münasibət duyulur ki, onunla göz-gözə, üz-üzə qalan tamaşaçı oradan onun ruhunu oxşayacaq, gerçəkliyə münasibətilə üst-üstə düşəcək estetik məziyyətləri əxz edə bilir. Rəssamın 1967-1969-cu illərdə ərsəyə gətirdiyi mis qabları görüntüyə gətirən natürmort əsərləri bu bədii keyfiyyətləri özündə əks etdirən maraqlı linoqravür nümunələrindəndir. Ələkbər Rzaquliyevin bu səpkidə olan natürmort əsərlərində bir-biri ilə bədii şərhlə anım yaradan məqamlar kifayət qədərdir. Bədii görüntüyə gətirilən mis qabların fakturasının ağ-qara cizgilərlə əldə olunması, həm də xüsusi ritmlərlə düzülmüş mis qabların duyulası zərif görkəm almasına səbəb olub. Bu natürmortlarda təsvir olunan müxtəlif biçimli mis qabların yaratdığı axıcı ritm öz davamını arxa plandakı mənzərədə tapdığından onların kompozisiyasının bütövlüyünə xidmət etməsi aydın olduğu qədər də, duyğulandırıcıdır.

Bu əsərlərdə təsvir olunan hər bir əşyaya böyük sevgi ilə yanaşan Ələkbər Rzaquliyev, onları mənalandırmaqla, həyatımızın ayrılmaz hissəsinə çevrilmələrinin təsadüfi olmadığını sərgiləmişdir.

Rəssamın 1971-ci ildə çəkdiyi “Azərbaycan musiqi alətləri” adlı natürmort əsərində də müəllifin son dövr yaradıcılığında çox fərqli bədii-estetik vəzifələr yerinə yetirdiyi aydın duyulur. Tar, kamança, saz, dəf, zurna, nağara və qoşanağara kimi milli musiqi alətlərini bir araya gətirən bədii görüntüdə rəssam alətlərin fakturasını aktiv kontur həlli ilə gerçəkləşdirməklə fərqli ovqat daşıyıcısı olduqlarını sərgiləmək istəmişdir. Eyni zamanda bütün səthi tutan musiqi alətlərinin təqdimatındakı “qabardılma” milli musiqi sənətimizin və xalq çalğı alətlərinin əhəmiyyətli olmasına təbiətən çox həssas olan müəllifin bədii eyhamıdır.

Nəticə etibarilə qeyd edək ki, Ələkbər Rzaquliyevin digər janrlarda ərsəyə gətirdiyi linoqravür nümunələrində olduğu kimi natürmort janrında yaradılmış əsərlərində də gördüklərimiz onun qədim milli irsdən yaradıcılıqla faydalanmasının göstəricisidir. Eyni zamanda rəssamın əşyalara münasibətində onları dəyərləndirmək və qürurdoğuruculuq qaynağına çevirmək, o cümlədən əşyaların forma-biçimində və bədii tutumunda milli dəyər daşıyıcılığını vurğulamaq istəyi olduqca qabarıq şəkildə özünü büruzə verir. Hələ sağlığında ikən onun əsərlərinə dünyanın müxtəlif guşələrində yaşayan sənət xiridarlarının böyük qiymət verməsi də əslində onun linoqravürlərində nümayiş etdirdiyi özünəməxsusluğun nəticəsi idi.

**Ədəbiyyat siyahısı:**


1. Əfəndi R. Azərbaycan incəsənəti / R.Əfəndi. - Bakı: Şərq-Qərb, - 2007. - 2720 s.
2. Əliyev Z. Köhnə Bakının vurğunu. “Panorama” qəz., 1997, 27 avqust. № 163
3. Əliyev Z., Xəlilov A. Azərbaycan İncəsənəti. 3 cilddə, II-III cild., Bakı: Letterpress, 2011, 200 s.
4. Həbibova S. Ələkbər Rzaquliyev. “Sərvət”. Bakı: “Şərq-Qərb” Nəşriyyat evi, 2013. 104 s.
5. Xəlilov A. Ələkbər Rzaquliyev yaradıcılığının bədii xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / Bakı, 2017. – 114 s.
6. Kərimov Ç. Ələkbər Rzaquliyevin ağlı-qaralı dünyası. “525-ci qəzet” qəz., 2009, 26 sentyabr.


**Аслан Акбар оглы Халилов**

## НАТЮРМОРТ В ТВОРЧЕСТВЕ ХУДОЖНИКА АЛЕКПЕРА РЗАКУЛИЕВА

**Резюме:** Алекпер Рзакулиев, уделивший в своем творчестве много места национальным архитектурным памятникам Старого Баку, древним традициям нашего народа, старым бакинским типам, отличающимся своей красочностью, в то же время создал интересные во всех смыслах произведения в натюрмортном жанре. Такие работы, как «Натюрморт с фруктами» (1962), «Натюрморт с рыбой» (1965), «Натюрморт» (1960-е), «Натюрморт с глиняной посудой» (1962), «Натюрморт. Медная посуда. Лахыдж.» (1967), «Медная посуда» (1968), «Медная посуда. Лахыдж.» (1969), «Азербайджанские музыкальные инструменты» (1971) и др. В этих натюрмортах у Алекпера Рзакулиева прослеживается уникальное

отношение к материальным и культурным образцам и природным богатствам, которые всюду нас окружают.

**Ключевые слова:** Алекпер Рзакулиев, графика, творчество, натюрморт, жанр.

**Aslan Akbar oghlu Khalilov**

## STILL LIFE GENRE IN THE WORK OF THE ARTIST ALAKBAR RZAGULIYEV

**Summary:** Alakbar Rzaguliyev, who devoted a lot of space in his work to the national architectural monuments of Old Baku, the ancient traditions of our people, the old Baku types distinguished by their colorful capacity, at the same time created works of interest in all senses in the still life genre. In this sense, his "Still Life with Fruits" (1962), "Still Life with Fish" (1965), "Still Life" (1960s), "Still Life with Pottery" (1962), "Still Life. Copper vessels. Lahij" (1967), "Copper vessels" (1968), "Copper vessels. Lahic" (1969), "Azerbaijani musical instruments" (1971), etc. works can be mentioned. In these still lifes, Alakbar Rzaguliyev has a unique attitude to the material and cultural examples and natural resources that surround us.

**Key words:** Alakbar Rzaguliyev, graphics, creativity, still life, genre

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova**